# Hamı üçün dəyərli kitab işıq üzü görüb




Qloballaşan cəmiyyətimizdə gündən-günə artan və diqqəti cəlb edən həyat hadisələri onu göstərir ki, müxtəlif amillərin təsiri nəticəsində ailə tərbiyəsi sistemində problemlər, çətinliklər, əsaslı dəyişikliklər baş verməkdədir. Uzun əsrlər boyu milli-mənəvi dəyərlərə bağlılığını qoruyub saxlamış ənənəvi ailə məfhumunun bəzi hallarda eroziyaya uğraması prosesi də nəzərə çarpır. Bu xoşagəlməz dəyişmənin əsas səbəbləri kimi sosial-iqtisadi çətinlikləri, azuşaqlı və təkuşaqlı ailələrin sayının artmasını, yeni qurulmuş ailələrin təcrübəli valideynlərdən çox tez ayrılaraq müstəqil həyata erkən başlamalarını, sosial amilləri və ən əsası gənclərin ailə qurumu mövzusunda az biliyə sahib olmalarını göstərmək olar.

Bu günlərdə professor R.L.Hüseynzadə və dosent L.Z.Allahverdiyevanın ADPU-nun mətbəəsində çapdan çıxmış "Ailə pedaqogikası" adlı dərsliyini çox əhəmiyyətli və dəyərli hesab edirik. Dərsliyin redaktoru, professor Oruc Həsənli, rəyçiləri isə professorlar İsmayıl Əliyev, Akif Abbasov, Hikmət Əlizadə, İramin İsayev və dosent Vahid Rzayevdir. Dərslik Naxçıvan Müəllimlər İnstitutunun pedaqogika və psixologiya kafedrasının iclasında və institutun Elmi Şurasında müzakirə edilərək bəyənilmiş və dərslik kimi nəşr edilməsi məsləhət bilinmişdir.

"Ailə pedaqogikası" pedaqogika elminin mühüm bir sahəsini təşkil edir. Tərbiyə işində çox mühüm mərhələ hesab edilən ailə tərbiyəsi öz aktuallığı ilə daim diqqət mərkəzində olmuşdur. Məhz bu baxımdan pedaqoji təmayüllü ali məktəblərdə və ya fakültələrdə bakalavr təhsil pilləsində tədris olunan "Ailə pedaqogikası" fənni xüsusi əhəmiyyət kəsb edir. Belə bir dərslik ilk dəfədir nəşr edilir. Belə ki, gələcəkdə valideyn olmağa hazırlaşan gənclər bu fənni öyrənərkən ailə etikasına, ailə etikasının tələblərindən irəli gələn məhəbbətə, nikaha və ailəyə, ailə münasibətlərinə, nikahın uğurlu və ailənin möhkəm olmasına, ailədə qarşılıqlı münasibətlərin qurulmasına, uşaqların tərbiyəsi və təhsilinə, vətənin ləyaqətli vətəndaşları kimi yetişdirilməsinə ciddi və məsuliyyətlə yanaşmaq adəti və qabiliyyəti formalaşdırmaq barədə fikirlərlə tanış olurlar.

Bu dərslik demək olar ki, əsasən gənclər auditoriyası üçün nəzərdə tutulmuşdur. Bu cəhətdən "Ailə pedaqogikası" dərsliyi gənclərimiz üçün çox dəyərli, əhəmiyyətli bir kitab olaraq bir istiqamətverici, bir yol göstəricisi və yeri gələndə də bir öyüdləyici kitabdır.

Bu bir dəyərli dərslik olaraq müəllimlərimiz üçün məlumatverici, maarifləndirici bir kitab, bilik mənbəyidir. Bu dili aydın, səlis, ailə həyatından götürülmüş nümunə və təcrübələrlə zəngin olan bir kitabdır. Maraqlı cəhətlərdən biri də budur ki, dərslikdə ailə tərbiyəsi ilə bağlı müsbət nümunələrlə yanaşı, həm də yanlış tərbiyə nümunələri, səhv tərbiyə üsulları da verilmişdir. Verilən nümunələr isə demək olar ki, hər bir ailədə baş verə biləcək hadisə və təcrübələrdir.

"Ailə pedaqogikası" dərsliyində ailə tərbiyəsinin, ailə həyatının, ailə münasibətlərinin demək olar ki, bütün sahələrinə toxunulmuşdur. Belə ki, dərslikdə bir çox sahələr geniş, bəzi sahələr isə az şərh edilmiş, bəzən də bəhsə uyğun nümunə və təcrübələr verilmişdir. Dərsliyin məndəricatına, xüsusilə fəsillərə baxsaq, dərslik haqqında müəyyən təsəvvürlərə malik ola bilərik: I fəsil. Ailə və onun xüsusiyyətləri; II fəsil. Ailədə uşaqların tərbiyəsinin təşkili; III fəsil. Hərtərəfli şəxsiyyət yetişdirmək ailənin əsas məqsədidir; IV fəsil. Mədəni vərdişlərin formaları və uşaqlarda tərbiyə olunma imkanlar; V fəsil. Şəxsiyyətin inkişafi və ailədə uşağın sosial inkişaf şəraiti; VI fəsil. Məktəbin ailə ilə əlaqə formaları.

Sonda isə istifadə edilmiş ədəbiyyat verilmişdir.

Hər fəsil bir neçə yarımfəsildən ibarətdir. Tələbələrin müstəqil çalışması üçün hər yarımfəsildən sonra suallar, tapşırıqlar və istifadə üçün ədəbiyyat siyahısı verilmişdir.

Göründüyü kimi, dərslik geniş və əhatəli işlənmişdir. Bu dərslik nəinki tələbələr, müəllimlər, həmçinin ailə həyatına hazırlaşan hər bir gənc üçün əhəmiyyətli və dəyərli bir kitabdır. Bu dərslik ailə tərbiyəsinin düzgün qurulması üçün istifadə ediləcək dəyərli mənbədir. Həmçinin ailə tərbiyəsində çətinlik çəkən, övladları ilə düzgün ünsiyyət və münasibət qura bilməyən valideynlər üçün də faydalıdır.

Bu dərslik hamı üçün gərəkli və əhəmiyyətli bir kitabdır.